# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 385** **Bakı şəhəri, 11 sentyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 aprel tarixli 98 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarının xüsusi təyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, istismarı, təhlükəsizliyinin təmin edilməsi, onlara sərəncam verilməsi Qaydası"nda dəyişikliklər edilməsi barədə**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1102-VQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 147 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 aprel tarixli 98 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 368; 2016, № 9, maddə 1585) ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarının xüsusi təyinatlı telekommunikasiya şəbəkələrinin qurulması, istismarı, təhlükəsizliyinin təmin edilməsi, onlara sərəncam verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü və 5.13-cü bəndlərə "fövqəladə" sözündən sonra "və hərbi" sözləri əlavə edilsin.

2. 3.6-cı bənddə "və fövqəladə" sözləri ", habelə fövqəladə və hərbi" sözləri ilə əvəz edilsin.

*Novruz MƏMMƏDOV*
*Azərbaycan Respublikasının Baş naziri*